**2023-2024-cü tədris ili üçün məktəbəqədər təhsil müəssisələrinə qəbulla bağlı ən çox verilən suallar və cavabları**

**Sual: Elektron sistem vasitəsilə məktəbəqədər təhsil müəssisələrinə sənəd qəbulu hansı tarixdən başlayır?**

**Cavab:** Ərizələrin onlayn qeydiyyatına 25 iyul tarixindən, uşaqların məktəbəqədər təhsil müəssisələrinə növbəyə yazılma prosesinə regional təhsil idarələri üzrə 1 avqust tarixindən, Bakı Şəhəri üzrə Təhsil İdarəsinə tabe müəssisələrdə isə 8 avqust tarixindən başlanılır.

**Sual: Məktəbəqədər təhsil müəssisələrinə uşaqların elektron sənəd qəbulu necə həyata keçirilir?**

**Cavab:** Məktəbəqədər təhsil müəssisələrinə uşaqların qəbulu bq.edu.az portalı vasitəsilə həyata keçirilir.

**Sual: Məktəbəqədər təhsil müəssisələrinə hansı uşaqlar qəbul edilirlər?**

**Cavab:** Məktəbəqədər təhsil müəssisələrinə 1 yaşdan 6 yaşadək uşaqlar qəbul edilirlər.

**Sual: Məktəbəqədər təhsil müəssisələrinə uşaqların elektron sənəd qəbulu hansı müddətdə həyata keçirilir?**

**Cavab:** Uşaqların məktəbəqədər təhsil müəssisələrinə növbəyə yazılması prosesinə avqustun 1-dən başlanılır və proses sentyabrın 1-də qrupların komplektləşdirilməsi səbəbilə müvəqqəti dayandırılır. Qrupların komplektləşdirilməsi prosesi bitdikdən sonra elektron qəbul sistemi yenidən aktiv olacaq və ilboyu boş yerlərə qəbul aparılacaq.

Elektron ərizəsi qeydiyyata alınan şəxslər üçün sənədlərin məktəbəqədər təhsil müəsisəsinə təqdimolunma müddəti uşağın sorğusu qəbul edildikdən sonra 15 (on beş) gün ərzində həyata keçirilir.

**Sual: Məktəbəqədər təhsil müəssisələrinə növbəyə yazılan uşaqların qəbulu necə həyata keçirilir?**

Mövcud növbələrin boş yer olduğu halda sorğuya çevrilməsi prosesi minimum 5 (beş) gündən sonra həyata keçirilir. Sistem göstərilən müddət ərzində prioriteti olan uşaqların növbələrini sorğuya çevirir. Növbəti mərhələdə boş qalan yerlərə prioritetsiz uşaqların yerləşdirilməsi təmin olunur.

**Sual: Elektron kabinet kimin adına açıla bilər?**

**Cavab:** Elektron kabinet valideyn və ya qanuni nümayəndənin adına açılmalıdır.

**Sual: Elektron sistemdən istifadə ödənişlidirmi?**

**Cavab:** Elektron sənəd qəbulu sistemindən istifadə üçün ödəniş tələb olunmur.

**Sual: Məktəbəqədər təhsil müəssisələrində təhsil ödənişlidirmi?**

**Cavab:** Məktəbəqədər təhsil müəssisələrində təhsil dövlət hesabına həyata keçirilir. Bu qruplar dövlət vəsaiti hesabına müvafiq təlim və metodiki vəsaitlərlə təmin edilir.

**Sual: Elektron sistemdə qeydiyyat zamanı istifadəçi hansı əlaqə vasitələrindən istifadə edə bilər?**

**Cavab:** Əlaqə nömrəsi və elektron poçt ünvanı.

**Sual: Məktəbəqədər təhsil müəssisələrinə uşaqların qəbulu zamanı hansı prioritetlər nəzərə alınır?**

**Cavab:** Məktəbəqədər təhsil müəssisələrində onlayn qeydiyyat zamanı aşağıda göstərilən kateqoriyadan olan uşaqların qəbulu üzrə üstünlük hüquqları təmin olunur:

- şəhid ailələrinin uşaqları;
- Qarabağ və Vətən müharibəsi iştirakçılarının, müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin uşaqları;
- tək işləyən valideynlərin uşaqları;
- orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərin uşaqları;
- hərbi xidmətdə olan valideynlərin uşaqları;
- təhsil alan anaların uşaqları;
- çoxuşaqlı ailələrdən olan uşaqlar;
- qəyyumluqda olan uşaqlar.

**Sual: Tədris digər dillərdə aparılan bölmə üzrə məktəbəqədər təhsil müəssisələrinə sənəd qəbulu necə həyata keçirilir?**

**Cavab:** Məktəbəqədər təhsil müəssisələrinə uşaqların qəbulu zamanı valideyn digər dildə tədris aparılan bölmə və müəssisəni seçərək növbəyə yazıla bilər.

**Sual: Növbə yaradılan zamanı bir neçə məktəbəqədər təhsil müəssisəsini seçmək mümkündürmü?**

**Cavab:** Bəli. Valideyn maksimum 3 məktəbəqədər təhsil müəssisəsini seçərək növbəyə yazıla bilər. Növbələrdən hər hansı biri sistem tərəfindən təsdiqlənərək sorğuya çevrilərsə, uşağın digər məktəbəqədər təhsil müəssisələrinə olan növbələri silinəcək.

**Sual: Valideyn məktəbəqədər təhsil müəssisəsini seçdikdən sonra fikrini (seçimini) dəyişə bilərmi?**

**Cavab:** Valideyn şəxsi kabinetə daxil olaraq yerləşdirilmiş sorğunu silib seçdiyi digər məktəbəqədər təhsil müəssisəsinə növbəyə yazıla bilər.

**Sual: Hansı halda valideyn elektron sorğusunu ləğv edib başqa məktəbəqədər təhsil müəssisəsi seçimi edə bilməz?**

**Cavab:** Sorğu məktəbəqədər təhsil müəssisəsi tərəfindən təsdiq edildikdən sonra ləğv oluna bilməz. Məktəbəqədər təhsil müəssisəsi tərəfindən sistemdə imtina düyməsi vurulduğu halda valideyn digər müəssisə seçimi edə bilər.

**Sual: Qeydiyyatdan keçdikdən sonra uşaqlar məktəbəqədər təhsil müəssisələrində müsahibəyə cəlb olunacaqmı?**

**Cavab:** Məktəbəqədər təhsil müəssisələrinə qəbul zamanı uşaqlar heç bir müsahibəyə cəlb olunmurlar.

**Sual: Məktəbəqədər təhsil müəssisələrinə uşaqların qəbulu üçün hara və hansı sənədlərin təqdim edilməsi tələb olunur?**

**Cavab:** Valideyn (və ya qanuni nümayəndə) məktəbəqədər təhsil müəssisəsinə qəbul üçün aşağıdakı sənədləri təqdim etməlidir:

1. "Şəxsi kabinet"dən çap olunmuş elektron ərizə;
2. Valideynin (digər qanuni nümayəndənin) şəxsiyyətini təsdiq edən sənədin surəti;
3. Uşağın doğum haqqında şəhadətnaməsi və ya şəxsiyyət vəsiqəsinin surəti;
4. Təhsil müəssisəsi rəhbərinin adına ərizə;
5. Uşağın mübadilə vərəqəsi;
6. Uşağın 3x4 sm ölçüdə 2 ədəd fotoşəkli;
7. Uşağın sağlamlıq vəziyyəti barədə tibbi arayış.

**Sual: Uşaq hansı halda məktəbəqədər təhsil müəssisəsinə qəbul olunmaya bilər?**

**Cavab:** İlk növbədə məsul şəxs https://bq.edu.az saytından elektron qeydiyyat zamanı valideynin (və ya qanuni nümayəndənin) özü və uşaq haqqında daxil etdiyi məlumatları təqdim olunan sənədlərin əsli ilə üzləşdirərək yoxlayır, həmin sənədlərin surətini saxlayaraq əslini dərhal valideynə (və ya qanuni nümayəndəyə) qaytarır. Məsul şəxs tərəfindən tələb olunan sənədlərin müvafiq qaydalara uyğun olmadığı aşkar edildikdə (elektron ərizə qeydiyyatı zamanı məlumatların bilərəkdən saxtalaşdırılması) uşaq məktəbəqədər təhsil müəssisəsinə qəbul olunmaya bilər.

**Sual: Məktəbəqədər təhsil müəssisələrinə qəbulla əlaqədar sual yarandıqda hara müraciət etmək olar?**

**Cavab:**

- Sual (məlumat) xarakterli müraciətləri Elm və Təhsil Nazirliyinin rəsmi "WhatsApp" (+994 51 206 78 48) xidmətinə yazmaqla və ya Bakı şəhərində yerləşən məktəbəqədər təhsil müəssisələri ilə bağlı 146 – 1, ümumi qeydiyyat məsələləri ilə bağlı 146 – 6 Çağrı Mərkəzinə zəng etməklə;
- bq.edu.az portalının "Əlaqə" bölməsinə müraciət etməklə;
- portal.edu.az platformasında qeydiyyatdan keçərək "Vətəndaş müraciətləri" bölməsindən Elm və Təhsil Nazirliyi və tabe qurumlara elektron (yazılı) müraciətlər (təklif, ərizə, şikayət) göndərməklə;
- Elm və Təhsil Nazirliyinin Vətəndaşların Qəbulu Mərkəzinə (Nərimanov rayonu, Əbdüləzəl Dəmirçizadə küçəsi 5) yaxınlaşmaqla;
- Elektron ərizənin qeydiyyatı ilə əlaqədar təhsil idarələrinə yaxınlaşmaqla;
- Qeyd olunan "ASAN xidmət" mərkəzlərinə yaxınlaşmaqla:
  - 5 saylı Bakı "ASAN xidmət" mərkəzi;
  - 6 saylı Bakı "ASAN xidmət" mərkəzi;
  - 7 saylı Bakı "ASAN xidmət" mərkəzi;
  - 2 saylı Sumqayıt regional "ASAN xidmət" mərkəzi;
  - 1 saylı Gəncə regional "ASAN xidmət" mərkəzi;
  - İmişli "ASAN xidmət" mərkəzi;
  - Mingəçevir "ASAN xidmət" mərkəzi;
  - Masallı "ASAN xidmət" mərkəzi;
  - Şəki "ASAN xidmət" mərkəzi;
  - Tovuz "ASAN xidmət" mərkəzi;
  - Şamaxı "ASAN xidmət" mərkəzi;
  - Salyan "ASAN xidmət" mərkəzi;
  - Bərdə "ASAN xidmət" mərkəzi;
  - Sabirabad "ASAN xidmət" mərkəzi;
  - Quba "ASAN xidmət" mərkəzi.